# YUĞ TEATRI FESTİVALDAN QAYIDIB

Artıq bir teatr mövsümünün də sonuna yaxınlaşırıq. Teatrların mövsüm sonunda necə işləmələri haqqında informasiya alıb da sizə çatdırmaq istədik və üz tutduq teatrlara. İlk hədəfimiz Azərbaycan Dövlət YUĞ Teatrı oldu. Teatrın ədəbi hissə müdiri Elçin Cəfərova ünvanladığımız ilk sualın cavabını belə aldıq:

*«Mövsüm başa çatmaq üzrədir? Vallah, başımız yaradıcı işə elə qarışıb ki, zamanın necə keçdiyindən xəbərimiz olmayıb».*

Elçin müəllimin işinin-gücünün çox olduğunu nəzərə alıb da çox vaxtını almadıq, diktafonu qarşısına qoyub – buyurun, gördüyünüz işdən danışın – dedik. O da danışdı. İştə bunları:

*«Bilidiyiniz kimi, YUĞ Teatrı 22-26 may tarixlərində Finlandiyanın İmatra şəhərində keçirilən «Ağ və Qara» Beynəlxalq Teatr Festivalında iştirak edirdi. Artıq teatrımızın kollektivi festivaldan bu gün qayıdıb.*

*Beynəlxalq əlaqələrin qurulmasını, dünya teatr məkanına inteqrasiyanı fəaliyyətinin prioritet istiqamətlərindən hesab edən, öz yaradıcılığında milli sənət düşüncəsi ilə dünya teatr sənətinin qabaqcıl təcrübələrini uğurla birləşdirən YUĞ Teatrı ölkəmizi bu festivalda F.Kafkanın əsərləri əsasında hazırlanan «Kafkadan salam» tamaşası ilə təmsil etdi.*

*Festival «Ağ və Qara» Teatrı tərəfindən təşkil olunmuşdu. «Ağ və Qara» Teatrı Finlandiyada yaşayan həmvətənimiz, teatr və kino rejissoru Kamran Şahmərdanın təşəbbüsü və yaxından iştirakı ilə 2001-ci ildə yaradılıb. Bu teatrın təşkil etdiyi eyniadlı festival isə 2003-cü ildən keçirilir. İlk dəfə 2003-cü ildə Finlandiyanın İmatra şəhərində keçirilən «Ağ və Qara» Teatr Festivalı əvvəllər yalnız kukla teatrları üçün nəzərdə tutulub. Sonralar, konkret desək, 2005-ci ildən festivalın yaradıcı potensialı, bədii sərhədləri genişlənib və burada teatr sənətinin kukla, pantomim, rəqs, dram teatrı kimi digər növlərinə də yer ayrılıb.*

*Hər ilin may-iyun aylarında Finlandiyanın İmatra şəhərində keçirilən Festivalın ideya müəllifi və bədii rəhbəri Kamran Şahmərdandır. Artıq Azərbaycan tamaşaçılarına da yetərincə tanış olan həmvətənimizin (xatırladaq ki, Kamran Şahmərdan Bakıda İbrus*

*Teatrında «Tənha səs», Rus Dram Teatrında «Torağay», «Cəhənnəm sakinləri», Kukla Teatrında «Ağ və Qara», Akademik Milli Dram Teatrında «Teleskop» tamaşalarına quruluş verib) təşkil etdiyi bu festival hazırda dünya miqyasında böyük nüfuz qazanıb. Belə ki, Festivalda Azərbaycan, Belçika, Keniya, Polşa, Böyük Britaniya, Rumıniya, İsrail, İran, Avstriya, İtaliya, Portuqaliya, Almaniya, Türkiyə, Ukrayna, Bularus, Rusiya və Estoniyadan ən müxtəlif üslubda çalışan teatr kollektivləri iştirak edib.*

*«Ağ və Qara» Festivalı İmatra Şəhər İdarəsi, Cənubi-Şərqi Finlandiya İncəsənəti üzrə Komissiya, Finlandiya Mədəniyyət Fondu, Maarif Nazirliyi həmçinin digər təşkilatlar tərəfindən maliyyələşdirilir.*

*YUĞ Teatrının festivala təqdim etdiyi «Kafkadan salam» tamaşası adından da göründüyü kimi, Frans Kafkanın əsərləri əsasında hazırlanıb. «Psixosof» poetikasına və bənzərsiz bir metodikaya əsasən hazırlanan tamaşanın quruluşçu rejissoru YUĞ Teatrının yaradıcısı və lideri, mərhum rejissorumuz Vaqif İbrahimoğludur. Tamaşanın süjeti spritik seans üzərində qurulub: Spiritik seansda Frans K.-nın ruhunu çağırırlar. Ruh peyda olur, amma və lakin spiritizmin qaydalarını pozaraq, spiritlərin ona verdiyi sualları özlərinə qaytarır.*

*Tamaşada YUĞ Teatrının aktyorları Əməkdar Artistlər Fərhad İsrafilov (Ata), Sonaxanım Mikayılova (Ana), Məmmədsəfa Qasımov (Oğul), Gülzar Qurbanova (Qadın), Vidadi İsmayıl (Dadı), aktyorlar Yaqut Paşazadə (Bacı), Hikmət Rəhim (Animus) və Ruslan Şöhrətoğlu (Frans K.) çıxış edirlər.*

*Tamaşanın ideya qurğusu Kafkanın əsərlərinin paradiqması üzərində qurulub. Teatrın mövqeyinə görə, Frans Kafka öz üzərində heç bir hakimiyyəti qəbul etməyən seçilmişlərdəndir. Özü də heç kimin üzərində hakim olmaq istəməyib, yaradıcılığı ilə insanları yalnız «salam»a, sülhə, barışığa çağırır.*

*YUĞ Teatrı «Kafkadan salam» tamaşası ilə küçə tamaşasından opera və baletə qədər ən müxtəlif janrda hazırlanmış tamaşaların qatıldığı Finlandiya «Ağ və Qara» Beynəlxalq Teatr Festivalında Azərbaycanı uğurla təmsil edib. Tamaşamız festival iştirakçıları tərəfindən maraqla qarşılanıb, izlənilib.*

*Düşünürəm ki, YUĞun dünya miqyasında analoqu olmayan poetikasını Avropa teatr məkanında geniş təbliğ etməyin, tanıtmağın vaxtı çoxdan yetişmişdi. Biz - teatrın*

*bütün kollektivi bu həqiqəti dərk edir və onun məsuliyyətini anlayırıq. Belə güclü yaradıcı potensiala malik kollektivimizlə bui şin öhdəsindən də gələcəyimizə zərrə qədər şübhəm yoxdur».*

Elçin müəllim, nə deyirik, təki elə olsun. Bu həm də Azərbaycan mədəniyyətinin, Azərbaycan teatrının uğurudur. Bu işdə sizə bol-bol müvəffəqiyyət və uğurlar arzulayırıq.

Sizə isə, hörmətli oxucularımız, teatrlarımızın uğurları və gördükləri işlər haqqında informasiya bildirməyi söz veririk.

Hələ mövsümün sonuna bir az var. Növbəti hədəfimiz isə… teatrı olacaq.

Görüşmək ümidi ilə

**Könül Əliyeva**

**teatrşünas**